# QARA XAL YAR




Araxçının məndədi, qara xal yar,
Sərmişəm çəməndədi, qara xal yar,
Aləm gözələ dönsə, qara xal yar,
Mənim gözüm səndədi, qara xal yar.

Araxçının dardarı, qara xal yar,
Gəl başımın sərdarı, qara xal yar,
Evimizə gəlmədin, qara xal yar,
Qonşumuza gəl barı, qara xal yar.

Araxçının haşımı, qara xal yar,
Hara qoyum başımı, qara xal yar,
Mən ki səni sevirəm, qara xal yar,
Tökmə gözün yaşını, qara xal yar.